ədalət.- 2021.- 13 mart.- S.16.

# "Hər şey gəlib rəqəmlərə bağlanır"

***"Bütün rənglər qara ilə ağdan alınmayıb? Burada sənin baxış bucağın rol oynayır ki, sən onu necə görürsən? Bir tərəfdən yasa qara geyinirlər, digər tərəfdən sevdiyi insanın gözündə arıq görünmək üçün qara geyinilir. Bunu hara bağlayaq?". "Ədalət" qəzetinin qonağı aktyor Kamran Ağabalayevdir.***

**-Hər vaxtınız xeyir olsun, Kamran bəy. Çox sağ olun ki, dəvətimi qəbul edib gəldiniz...**

-Salam, xoşdur.

**-Sizin təbirinizcə, deyim, insanların daxili aləmi 2 rəngdə olur-ağ və qara. Kamran Ağabalayevin daxili aləmi nə rəngdir?**

-Rəng olaraq mən qaranı seçirəm. Amma insanların daxili aləmi 2 rəngdən formalaşan rənglərdən ibarətdir. Həmin rənglər sənin kim olduğunu göstərir. Ki, daha çox hansı rəngdəsən? Daha çox hansı rəngi seçirsən? Və daha çox hansı rəng səni seçir? Qara...Mən hər zaman qaranı seçmişəm. Qaranın səmimiliyinə inanıram. Bu sevgi ilə nifrətdə də belədir. Mən daha çox nifrətə inanıram. Çünki nifrət daha çox səmimi hissdir. Siz neçə nəfərdən eşidə bilərsiniz ki, kiməsə yalandan desin ki, mən sənə nifrət edirəm? Amma neçə nəfərdən eşidə bilərsiniz ki, yalandan "mən səni sevirəm" söyləsin? Son 100 ildə "Səni sevirəm" ifadəsinin dəyəri qat-qat aşağı düşüb. Odur ki, daha çox qaraya və nifrətə inanıram. Daha səmimi gəlir. Biz qaranı çox zaman mənfi enerji ötürücüsü kimi nəzərdən keçiririk, amma qara mənfi enerjini toplayır, ötürmür. Ayıbları örtür. Onsuz da, biz ayıbları örtən xalqıq. Suvamağa, yamamağa meyilliyik. Ona görə, bu gün qara, sabah isə bilmirəm nə rəng ola bilər.

**-Pozitiv insansınız?**

-Çox pozitiv insanam. Hər bir neqativdə belə müsbət nəsə axtarmağa çalışıram. Heç vaxt heç kimin arxasınca demərəm ki, filankəs bunu elədi, bu yaxşı əməl deyil. Biz hər zaman nəyəsə bir prizmadan baxırıq: "Filankəs bunu elədi". Amma filankəs bunu niyə elədi, filankəsin bunu etməkdə məqsədi nə idi, bunu düşünmürük. Bu gün fikirləşdiyim odur ki, pislik, pis əməl deyə bir şey yoxdur. Pislik yoxdur, amma rəqəmlər var. Hər şeyi rəqəmlər həll edir. Yəqin ki, tamaşaçılar başa düşərlər, mən nə demək istəyirəm. Bu gün çox əfsuslar olsun ki, hər şeyi rəqəmlər həll edir. Bu gün rəqəmlər həyatımızın kontrolunu tam şəkildə əlinə alıb.

## *"Hər kəsin öz doğrusu var"*

**-Rəqəmlərdən danışmazdan öncə bir sual maraqlıdır. Kəmalə xanım Müzəffər deyirdi ki, mənim daxili dünyam ona görə qaradır ki, kədər məni xoşbəxt edir...**

-Əslində mən bu cavabla razılaşmamışdım. Çünki cümlənin özü absurd cümlədir: "Kədər məni xoşbəxt edir". Mənə görə, cümlə absurddur. Kədər səni necə xoşbəxt edə bilər? Niyə? O zaman sənin yüz faiz ki, hansısa psixoloji problemlərin var. Amma qaynağın haradan gəldiyini bilirəm. Kəmalə xanımı düzgün anlamaya bilərlər, amma mən o qaynağı bilirəm. Kəmalə xanım aktirsadır, mən aktyoram, anlayıram. Sırf sənət baxımından Kəmalə xanım bu cümləni işlədir. Çünki o enerjinin qaynaqlandığı bir yer var. Müəyyən hadisələr var ki, sən onu yaşayırsan, içindən keçirdirsən. Hər zaman şairlərə verilən bir sual var, siz bunu yaşamısınız ki, yazmısınız? Xeyr. Mən əgər qatil obrazını canlandırıramsa, o demək deyil ki, mən haçansa qatil olmuşam. "Sənin xəyal dünyan" deyilən bir ifadə var, ən azından bilirik ki, qatil hansı tipdə olur.



**-Dediniz ki, pozitiv insanam, amma qara. Təzadlıdır...**

-Yasla toy qardaş deyil? Qara ilə də ağ hər zaman belə olub. Bütün rənglər qara ilə ağdan alınmayıb? Burada sənin baxış bucağın rol oynayır ki, sən onu necə görürsən? Bir tərəfdən yasa qara geyinirlər, digər tərəfdən sevdiyi insanın gözündə arıq görünmək üçün qara geyinilir. Bunu hara bağlayaq? Bu, sənin baxış bucağından asılıdır. Bu gün insanların problemi odur. Baxış bucağı...Biz rahat şəkildə deyə bilərik ki, filankəs düz eləmir. Amma filankəsin haqqlarını bilmirik. Bilmirik ki, filankəs nə düşünür, niyə eləyir? Hansı rəqəmlərdir diktə edən? Nəyin rəqəmləridir?

Çörək pulumu, yoxsa uşağın təhsilimi? Bunlar da rəqəmlərdir. Hər şey gəlib rəqəmlərə bağlanır. Siz inanırsınız ki, kimsə kiməsə bilərəkdən pislik edir? Və ya edirsə, niyə edir? Səbəb? Mən inanmıram ki, kimsə dayandığı yerdə başqasına pislik etsin. Hər kəsin öz doğrusu var.

## *"Üzüntülərini kiməsə göstərməməlisən"*

**-Kamran Ağabalayevin doğruları nələrdir?**

-Doğrular dəyişir, hər gün dəyişir. Konkret bir sloqan yoxdur ki, Kamran Ağabalayev o sloqanla hərəkət eləsin. Nə olursa, olsun, heç bir halda üzüntülərini kiməsə göstərməməlisən. Niyə də göstərməlisən? Niyə kiminsə sənə yazığı gəlməlidir? Biz sadəcə deyə bilərik ki, filankəs necə yazıqdır, heyif. Və? Bəlkə elə edək ki, o, yazıq olmasın? Bəlkə, sən mənim əlimdən tutasan, mən onun əlindən tutum? Bəlkə, necəsə onu o yazıqlıq çərçivəsindən çıxaraq? Biz onsuz da bunu etməyəcəyik, biz sadəcə deyə bilərik. Ki, filankəs yazıqdır. Ona görə də, heç vaxt kimsəyə zəif görsənməmək lazımdır.

**-Həyat səninlə şahmat oynayır, sən onunla şahmat oynayırsan və o, səni tərk edir, başlayır, nərd oynamağa...**

-Həyatdır, bunu bilməlisən. Başqa variantı yoxdur. Həyat səninlə müxtəlif oyunlar oynayır, sən də onunla oynamağı bacarasan, sadəcə oynamağı bacarasan. Qarşındakı səninlə oynayırsa, sən də qarşındakı ilə oynamağı bacarmalısan. Amma həyatla oynayanda sən bilməlisən ki, soyunub-geyinmə otağından 3-0 məğlubiyyətlə başlayırsan oyuna. Yəni bunun qələbə tərəfi yoxdur. Sadəcə ritmi tut, oyna. Ən rahat həyat tərzi. Onun verdiyi ritmi tut, oyna və məğlubiyyətinlə də barış. Başqa nə edə bilərsən?

## *"Hər bir kəs Allahla danışır"*

**-İtkilər...**

-Çox olub, həddindən artıq çox, amma mən bu haqda da danışmamışam. Bu mənim itkimdir. Mənim itkimdən kimə nə? Sadəcə eşitmək üçün ki, Allah rəhmət eləsin, ondan ötrü danışım? Niyə? Yəni o cümləni desələr də, deməsələr də, nə dəyişəcək?

**-Ötən müsahibəmizdə ananız barədə nələrsə demişdiniz amma...**

-İtkim tək o deyil. Sadəcə olaraq bu barədə danışmaq istəmirəm.

**-Mənə bir sual maraqlıdır, ananız sağ olsaydı, onunla nələrdən danışardınız?**

-Danışmasa da, olardı. Vacib deyil ki, danışsın, yanımda olaydı, bəsdir. Amma bu o demək deyil ki, bu gün mən onunla danışmıram. Nəysə edəndə bilirəm ki, anam deyəcəkdi ki, bu düz deyil. Bax həmin kəlmələri onun öz dilindən eşitmək istəyirəm. Bu gün bir çoxunun leksikomunda "ana" kəliməsi var, onun qədrini bilsinlər. Vallah, qədrini bilmək lazımdır. Məsələn, mənim leksikonumda 15 ildir ki, həmin ifadə yoxdur. 15 ildir, ana, 38 ildir, ata, 26 ildir, qardaş, 24 ildir, bacı sözləri yoxdur. Bu qədər deyim, bəs edir.

**-Bu itkilər sizi heç yormayıb?**

-Yorulub nə edəcəm? Kiminlə mübarizə aparacam?! Yenə də deyirəm, sən soyunub-geyinmə otağından 3-0 məğlubiyyətlə başlayırsan. Kimə inqilab edəcəm ki? Tanışlarım bəzən deyir ki, Kamran, sən şanslı birisən.

Qardaş, mən verdiklərimin qarşılığında şanslı biri olmalıyam da. Nəsə məndən alınanda, nəsə verilməlidir də. Yenə rəqəmlərə gəlib çıxırıq.

**-Allahla tez-tez danışırsınız?**

-Öz içi ilə danışan hər bir kəs Allahla danışır. Məndə elədir. Tez-tez danışıram.

**-Sonda sizə bir sual verim, həyatınızda hansı rəqəm müstəsna rol oynayır?**

-3 və 9...Uşaqlıqda düşünürdüm ki, bu, bəlkə, bir psixoloji problemdir. Eyni addımı 3 dəfə etməyə çalışırdım, sonra 9 dəfə. 3 dəfə əl çalırdım, sonra 9 dəfə. Bir dərsi 1 dəfə oxuyub öyrənirdim, sonra 2 dəfə də oxuyurdum ki, qoy 3 olsun. Hazırda 3 və 9 rəqəmləri məni izləyirlər də. 3 və 9, arada da 27 sevdiyim rəqəmlərdir. Bu rəqəmlərdə hansısa bir sirr var. Mənim üçün nağıllarda həmişə 39-cu qapı maraqlı olub, 40-cı qapı heç bir zaman maraqlı olmayıb. Düzdür, biz hər şeyi 40-cı qapıya yönəltmişik, amma mənim üçün hər zaman 39-cu qapı maraqlı olub.

**-Çox sağ olun, dəvətimi qəbul edib gəldiniz.**

-Mən sizə minnətdaram.

**Rövşən Tahir**